Ədəbiyyat qəzeti

22 10 oktyabr 2020-ci il

# Vətən sevgisi hər şeydən uca...



## Milli Qəhrəman Samid İmanov da "Vətən sevdalısı" idi...

Neftçalada yazıb-yaradan şair Fərhad Əzizbəyli Azərbaycanın Milli Qəhrəmanı, Aprel döyüşlərində (2017) şəhid olmuş Samid İmanovun əziz xatirəsinə "Vətən sevdalısı" adlı poemahəsr edib. Əsər 2019-cu ildə "Ədəbiyyat qəzeti"ndə yayınlanıb. Şair poemaya Mehmet Akif Ersoyun "Ey bu torpaq üçün torpağa düşmüş əsgər! Göydən əcdad enərək öpsə o pak alnı, dəyər!" beytini proloq seçib. Elə proloqdan bədii məramnaməsini bəlirləyən yazar poema boyu igid Samidin keçdiyi örnək olası həyat yolunu izləyir, özkeçmişinin səhifələrini vərəqləyir... Samidi şəhidliyə, "əcdadının göydən enib alnını öpməsinə"doğru aparan sonsuz Vətən sevgisini, Uluyurd sevdasını tərənnüm etməyə çalışır...

*Samid məktəbliydi, Zakir Məcidov*
*Bu kənddən ilk Milli Qəhrəman oldu.*
*O gündən qəlbində Vətən sevgisi*
*Adi eşq olmadı, din, iman oldu!*

Qəhrəmanlar hər zaman şərəfli döyüş yolu ilə örnək olublar, bu şəksizdir, amma Samidi şəhid olmaq gücündə, mərdliyində yetişdirən Gülağa kişi ilə oğlunun uşaqlıq çağlarından Vətənin işğal altında olan Qarabağ balasının azadlığı yolunda vuruşmaq, hətta şəhid olmaq barədə düşündüyünü, bu amalla yaşadığını deyən Xuraman xanımın sevgi üzərində qurduqları ocağı unutmaq olmaz... Turan və Fidan balasını, sevdiyi qadınını, ata-anasını, qardaş və bacılarını Neftçalanın İsmili kəndində qoyub onlardan da çox sevdiyi ana torpaq uğrunda döyüşməyə gedən Samidin özkeçmişini öyrənən oxucunun şübhəsi qalmır ki, Abbas Səhhətin "Könlümün sevgili məhbubu mənim, Vətənimdir, vətənimdir, vətənim!" misraları ilə başlayan "Vətən" şeirini hər gün ürəyində dəfələrlə təkrarlayan mətin döyüşçü üçün də Vətəni sevmək iman işi olub.

Düşünürəm ki, son 30 ildə formalaşan, təzadlı, mürəkkəb hadisələr burulğanında özünü itirməyən yeni insan obrazı ədəbiyyatımızda məhzgeneral Polad Həşimov və digər milli qəhrəmanlarımız olacaq... Fikrimcə, Fərhad Əzizbəyli Polad kimi igid, mətin döyüşçü, şəhid Samid İmanovun ("Vətən sevdalısı"), gənc şair Faiq Şəmil oğlu İsmayılovun ("Şeirin susmadı") timsalında fil.e.d. Vaqif Yusiflinin vurğuladığı "Yeni insan obrazını" yarada bilib...

İllər boyu (32 il) davam edən sonuncu qanlı münaqişənin sülh yolu ilə həllinin mümkünsüz olduğunu görən və qudurğan düşmənin artıq digər rayonlarımıza qarşı da hücuma keçdiyinin və mülki əhalini belə hədəfə aldığının şahidi olan Azərbaycan dövləti, Silahlı qüvvələrin Ali Baş Komandanıİlham Əliyev və rəşadətli ordumuz öz sözünü deməyinvaxtı çatdığını düşünərək, nəhayət, 2020-ci ilin sentyabrında Ermənistanın növbəti işğalçılıq həmlələrinə qarşı əks-hücuma keçməyə, öz qəti sözünü deməyə, tarixi ədaləti bərpa etməyə vadar oldu.

Azərbaycan ordusunun rəşadəti, igidlərimizin qəhrəmanlıqları bundan sonra da təkcə Fərhad Əzizbəylini deyil, digərəqidədaşlarını da qələmə sarılmağa və onları vəsf etməyə sövq edəcək...

Deməli, ədəbiyyat təkcə mədəniyyət hadisəsi deyil, həm də xalqın yaşamını, amal, arzu və istəklərini, duyğu və düşüncələrini, eyni zamanda dövlət siyasətini yansıdan, ideologiyaya sağlam şəkildə dəstək verən mühüm nəsnədir. Min təəssüflər olsun ki, yüz illər boyunca davam edən erməni-Azərbaycan münaqişəsi neçə-neçə nəsr və nəzm əsərinin mövzusuna çevrilib və mövzu bu gün üçün də aktuallığını saxlayır...

**Esmira FUAD**